# Vahid əlaqələndirmə mərkəzlərinə 2100-dən çox şəhid ailəsi üzvü və qazi müraciət edib

Bakıdakı DOST mərkəzlərindəki vahid əlaqələndirmə mərkəzlərinə ötən dövrdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibədə xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 2119 şəxs (o cümlədən Çağrı mərkəzi-142 vasitəsilə 207 şəxs) müraciət edib.

Vahid əlaqələndirmə mərkəzləri Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli Fərmanına əsasən yaradılıb.

Bu mərkəzlərdə şəhid ailələri üzvlərinə, müharibədə xəsarət almış hərbi qulluqçulara, müharibə əlillərinə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s. sahələr üzrə 19 dövlət orqanı (6 mərkəzi, 13 yerli icra hakimiyyəti orqanı) tərəfindən 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf şəkildə, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilir.




İlk mərhələdə Bakıdakı DOST mərkəzlərində avqustun 23-dən fəaliyyətə başlayan mərkəzlərə edilən müraciətlərin bölgüsü aşağıdakı kimidir:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 570 müraciət;
- Müdafiə Nazirliyi üzrə 852 müraciət;
- Səhiyyə Nazirliyi üzrə 48 müraciət;
- Səfərbərlik və Hərbi Xidmətə Çağırış Dövlət Xidməti üzrə 87 müraciət;
- Yerli icra hakimiyyəti orqanları üzrə 149 müraciət;
- İcbari Tibbi Sığorta Dövlət Agentliyi üzrə 46 müraciət;
- Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 160 müraciət;
- Çağrı mərkəzi-142 vasitəsilə 207 müraciət.

Azərbaycan.- 2021.-22 oktyabr.- S.12.